# HÜQUQ

**UOT 327.7**

## REGİONAL MÜNAQİŞƏLƏRİN NİZAMA SALINMASINDA BEYNƏLXALQ MƏHKƏMƏNİN ROLUNUN ARTIRILMASI PERSPEKTİVLƏRİ

**R.B.DADAŞOVA**
**AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu**
***dadashova.ramila@rambler.ru***

*Beynəlxalq hüquq normalarının Beynəlxalq Məhkəmə vasitəsilə həyata keçirilməsi beynəlxalq münasibətləri nizama salmada aktual problemlərdən biridir. Təcavüzkarı cəzalandırmaq üçün Xüsusi Tribunalın yaradılması son dərəcə vacibdir. Sülh və təhlükəsizliyi müdafiə etmək üçün Təhlükəsizlik Şurası və Beynəlxalq Məhkəmə arasında sıx əməkdaşlıq olmalıdır. Əsirlər barədə hüquqi məsələlərin qaydaya salınması üçün Beynəlxalq məhkəmə komissiyası yaradılmalı, Beynəlxalq Məhkəmə İnsan hüquqları üzrə Şura, Kompensasiya Komissiyası ilə əməkdaşlıq etməlidir.*

**Açar sözlər:** Beynəlxalq Məhkəmə, insan hüquqları, Xüsusi Tribunal, hərbi cinayətlər, genosid, təcavüzkar müharibə

Beynəlxalq hüquq normalarının Beynəlxalq Məhkəmə vasitəsilə həyata keçirilməsi beynəlxalq münasibətlərin tənzimlənməsində aktual problemlərdən biridir. Beynəlxalq hüquqşünas F.İ.Kojevnikovun fikrincə, «Beynəlxalq hüquq normaları beynəlxalq əlaqələrin, sülhün və təhlükəsizliyin təmin olunması vasitəsi olub, bəşəriyyətin, bütün sülhsevər xalqların tələblərini özündə əks etdirir» (2, 110).

Beləliklə, beynəlxalq mübahisələrin dinc yol ilə nizama salınması vasitələrini iki növə ayırmaq olar: 1) Diplomatik vasitələr (danışıqlar, təhqiqat, barışdırma) 2) Məhkəmə vasitələri (Beynəlxalq arbitraj və Beynəlxalq Məhkəmə). Bu halda qərəzsiz üçüncü tərəf beynəlxalq hüquq normalarını əsas götürməklə beynəlxalq mübahisələri həll edir və onun çıxardığı qərar mübahisə tərəfləri üçün məcburidir. Beynəlxalq Məhkəmə konvensiyalardan, beynəlxalq adət normalarından, məhkəmə qərarlarından, doktrinalardan istifadə etməklə,

münaqişə tərəflərinin razılığı ilə dövlətlərarası mübahisələrə baxır, tərəflərin qərarları ex aequoct, ədalətlilik prinsipi əsasında qəbul edilir (8, 180).

Təcavüzkar müharibəyə görə məsuliyyət ilk dəfə 1945-ci ildə Avropa ölkələrindən olan hərbi cinayətkarların cəzalandırılması barədə London sazişində təsdiqini tapdı. 1946-cı ildə Beynəlxalq hərbi tribunal Nyurnberqdə qərara aldı ki, “Beynəlxalq hüquq əleyhinə cinayətləri abstrakt fərdlər yox, insanlar edir, yalnız belə cinayətləri törədən ayrı-ayrı şəxslərin cəzalandırılması yolu ilə beynəlxalq hüquqa riayət edilə bilər” (11, 146). Baş Məclisin 1970-ci il dövlətlərarası əməkdaşlıq və dostluq münasibətlərinə toxunan Beynəlxalq hüququn prinsipləri barədə bəyannaməsində “təcavüzkar müharibənin sülh əleyhinə cinayət olduğu, beynəlxalq hüquq nöqteyi-nəzərdən məsuliyyət daşıdığı” etiraf edilir.

1997-ci ildə BMT-də islahatlar barədə çıxış edən Baş katib B.B.Qali sülh quruculuğu maraqlarına müvafiq olaraq Beynəlxalq Məhkəmənin potensialının inkişaf etdirilməsi vacibliyini qeyd etdi. Məruzədə Nizamnamənin 36-37-ci maddələrinə əsasən üzv dövlətlərin məhkəmədən, arbitrajdan və s. istifadə etməklə beynəlxalq mübahisələrin nizama salınmasına üstünlük verməsi əhəmiyyəti göstərildi (5, 57-60). Beynəlxalq Məhkəmənin fəaliyyətinin gücləndirilməsi, onun qərarlarının yerinə yetirilməsi vacibliyi Baş Məclisin 55-ci sessiyasında qəbul edilən BMT-nin Minillik Bəyannaməsinin “Sülh, təhlükəsizlik və tərksilah” adlı bölümündə də əksini tapdı (10). Həmin il Baş katib K.Annanın BMT-də islahatlar aparmaq üçün təkliflər verməsi məqsədilə təsis etdiyi Yüksək səviyyəli qrupun “Braximi məruzəsi” kimi tanınan məruzəsində sülhə nail olmaq üçün insan hüquqlarının qorunması, qanunun aliliyi, departamentlərdə nizam-intizam və s. olmasının vacibliyi vurğulandı (4).

Təhlükəsizlik Şurası 2001-ci il 30 avqust tarixli “Silahlı münaqişələrin qarşısının alınmasında Təhlükəsizlik Şurasının rolu” barədə qəbul etdiyi 1366 saylı qətnaməsində regional münaqişələrin qarşısını almaq, yaxud onları nizama salmaq üçün genosidin qarşısını almağın, bəşəriyyət əleyhinə cinayətlər və hərbi cinayətlər törədənlərin məsuliyyətə cəlb edilməsinin, Yuqoslaviya və Ruanda kimi xüsusi tribunalların yaradılmasının əhəmiyyətli olduğunu bildirdi (9). Təhlükəsizlik Şurasının 2001-ci il 30 avqust tarixli 1366 saylı «Silahlı münaqişələrin qarşısının alınmasında Təhlükəsizlik Şurasının rolu» adlı qətnaməsində də keçmiş Yuqoslaviya və Ruanda kimi xüsusi tribunalların rolu etiraf edilmiş, belə tribunalların gələcəkdə silahlı münaqişələrin qarşısını almaqda rolu göstərilmişdir. Qətnamədə deyilirdi ki, Nizamnamənin VI fəslində nəzərdə tutulduğu kimi, üzv dövlətlər mübahisələri sülh yolu ilə nizama salmaq üçün regional təşkilatların əməkdaşlığından istifadə etməklə yanaşı, daha çox Beynəlxalq Məhkəməyə müraciət etməyə üstünlük verməlidirlər (9).

Genosid cinayətinin qarşısının alınması və ona görə cəzalandırma barədə konvensiyanın qəbul edilməsi (Yuqoslaviya - Serbiya və Çernoqoriya əleyhinə Bosniya və Hersoqovina) işinə Beynəlxalq Məhkəmədə baxılmışdır. 1997-ci ildə Yuqoslaviya üzrə beynəlxalq tribunal cəzavermə barədə öz ilk qərarını verdi, 3

nəfər həbs edilərək Haaqaya göndərildi. Ruanda üzrə beynəlxalq tribunalda 21 nəfərə cəza verildi (7, 70). Beynəlxalq Məhkəmə "Qətər və Bəhreyn arasında dəniz və ərazi sərhədlərinin delimitasiyası" işinə də baxmış, Qətərin 1994-cü il 30 noyabr tarixli ərizəsinin qəbuledilməz olduğu bildirilmişdi (3, 40).

Yuqoslaviya və Ruanda kimi xüsusi tribunallar yaradılması zəruridir. Bu nöqteyi-nəzərdən, gələcəkdə Ermənistanın növbəti cinayətlərinin qarşısını almaq üçün xüsusi tribunalın yaradılması vacibdir. 2008-ci ilin fevralında Ermənistanın prezidenti seçilmiş Serj Sarkisyan öz karyerasına "Dağlıq Qarabağ Respublikası özünümüdafiə qüvvələri komitəsinin" sədri kimi başlamışdı. 1993-cü ildə Ermənistanın müdafiə naziri, sonra isə baş naziri olmuşdu. 1994-cü ildən 1997-ci ilə qədər "DQR-ın prezidenti" olan Robert Koçaryan sonralar Ermənistanın baş naziri, 1998-ci ildən 2008-ci ilə qədər prezidenti olmuşdu. Buradan belə nəticəyə gəlmək olar ki, Ermənistanın indiki de yure əsas orqanları "DQR-ın" bayrağı altında de facto orqanları olmuşdur (11, 138). Qondarma "Dağlıq Qarabağ Respublikasında" rəhbər vəzifələrdə işləmiş, Xankəndi və digər yaşayış məntəqələrindən 1 milyondan çox azərbaycanlının kütləvi surətdə öz doğma yurdlarından məcburi qovulması və minlərlə insanın qətlə yetirilməsinə şərait yaradan, erməni quldur dəstələrini zəruri vəsaitlərlə təmin edən R.Koçaryan, indi isə S.Sarkisyan hökuməti azərbaycanlılara qarşı kütləvi terror aksiyalarını Ermənistanda dövlət səviyyəsində davam etdirirlər. Cəbrayılın, Zəngilanın, Füzulinin işğalını erməni quldurları R.Koçaryan, S.Sarkisyan, S.Ohanyan, S.Babayan, A.Qukosyan təşkil etmişlər (6, 128-129). Lakin minlərlə insanın qətlində iştirak edən R.Koçaryanın (1999-2007-ci illər), indi isə S.Sarkisyanın Ermənistan prezidenti olması Beynəlxalq Məhkəməni narahat etmir. S.Ohanyan isə hazırda Ermənistanın müdafiə naziridir. 1996-cı ildə "Dro" adlı terrorçu təşkilatda fəaliyyətinə görə həbs edilən Vaqan Oqanesyan R.Koçaryanın təşəbbüsü ilə həbsdən azad edilərək Ermənistan prezidentinin müşaviri oldu. Bakı metrosunun "20 Yanvar", "28 May-Gənclik", "Ulduz- N.Nərimanov", stansiyalarında törədilən partlayışlarda fəal iştirak edən Ermənistan terrorçu təşkilatı "ASALA" terrorçularından Davidyan, Melkonyan R.Koçaryan tərəfindən Qarabağda səhra komandirləri vəzifəsinə təyin edildilər. Xocavəndin işğalı zamanı erməni terrorçusu Melkonyana ölümündən sonra milli qəhrəman adı verilməklə yanaşı, Müdafiə Nazirliyinin diversiya mərkəzlərindən birinə onun adı verildi. 1990-cı il iyulun 11-də Tərtərdən Kəlbəcərə sərnişin aparan avtobus və xalq təsərrüfatı malları daşıyan maşın karvanına qarşı terror aksiyası keçirilmiş, dinc sakinlər qətlə yetirilmiş Ayriyon Arkadi Abramoviç və Babayan Samvel həbs edilsələr də, 1992-ci ilin iyulunda S.Babayan azərbaycanlı girov və əsirlərlə dəyişdirilmiş, 1993-1999-cu illərdə o, qondarma "DQR-nın müdafiə naziri" olmuşdu.

Ermənilər XVIII-XIX əsrlərdə, 1905-1907-ci illərdə, 1918-1920-ci illərdə, 1948-1953-cü illərdə, 1988-ci ildən bu günədək azərbaycanlılara qarşı soyqırımı siyasəti yeritmişlər. Genlərində türkə qarşı düşmənçiliyin olduğunu sübut edən ermənilər 1988-ci ildən Azərbaycana qarşı növbəti dəfə torpaq iddiaları

qaldırdılar. Terrorçu Ermənistanın törətdiyi qırğınlar nəticəsində 20 000-dən çox insan şəhid oldu, 50000-dən çox insan əlil oldu, 100 000-dən çox insan yaralandı, 1 milyondan çox insan qaçqın və məcburi köçkünə çevrildi, 4861 nəfər girov götürüldü. Onlardan 314-ü qadın, 58-i uşaq, 255-i qocadır. 1988-ci ildə Ermənistanda etnik təmizləmə siyasəti həyata keçirilərkən, 185 yaşayış məntəqəsindən 250 mindən çox azərbaycanlı didərgin salındı, 216 nəfər öldürüldü. XX əsrin son 90 ilində ermənilər azərbaycanlılara qarşı 86 soyqırımı həyata keçirdilər (1, 53). 1991-ci il dekabrın 15-də ermənilər Cəmilli, dekabrın 24-də Meşəli, dekabrın 28-də Kərgicahan, 1992-ci il yanvarın 18-19-da Nəbilər kəndini, fevralın 12-nə keçən gecə Malıbəyli və Quşçular kəndini yandırdılar, azərbaycanlıları qətlə yetirdilər. Fevralın 17-də Xocavəndin Qaradağlı kəndində 87 azərbaycanlı qəddarlıqla öldürüldü. Kəlbəcərdə 1000 nəfərdən çox insan öldürüldü, 321 nəfər əsir alındı, yüzlərlə yaralananlar, ömürlük şikəst edilənlər oldu, Ağdaban kəndində aprelin 8-də ermənilər dinc əhalini güllələdilər. Fevralın 25-dən 26-na keçən gecə əsrin böyük faciəsi Xocalı soyqırımı baş verdi. Ermənilər Xankəndindəki Rusiyaya məxsus 366-cı motoatıcı alayının iştirakı ilə Xocalını işğal etdilər. Azərbaycanlı soyqırımında 613 nəfər vəhşicəsinə işgəncələrlə qətlə yetirildi, 487 nəfər yaralandı, 1275 nəfər əsir alındı, 6 ailə məhv edildi, şəhər yandırıldı, 25 uşaq hər iki valideynini, 130 uşaq bir valideynini itirdi. Öldürülənlərdən 106 nəfəri qadın, 83 nəfəri uşaq idi. Oxşar faciələrə yol verilməməsi üçün Xocalı soyqırımında və digər faciələrdə günahkar olanlar məsuliyyətə cəlb edilməlidir. Xocalı soyqırımı barədə xüsusi tribunalın yaradılması, cinayətkarların məsuliyyətə cəlb edilməsi gələcəkdə belə cinayətlərin olmasının qarşısını ala bilər.

Regional münaqişələrin qarşısını almaq, yaxud onları nizama salmaq üçün BMT-nin əsas orqanlarından biri olan Beynəlxalq Məhkəmənin fəaliyyəti gücləndirilməklə yanaşı, digər əsas orqanlarla, eləcə də ixtisaslaşmış orqanlarla, o cümlədən İnsan hüquqları üzrə Şura, lazım olan vaxtda BMT-nin yaratdığı Kompensasiya Komissiyası və s. ilə əməkdaşlıq olmalıdır. Sanksiyalar üzrə müxtəlif komitələr, korporasiyalar və hökumətlərin iddialarına baxan Kompensasiya komitəsi yaradıla bilər. Təhlükəsizlik Şurasının köməkçi orqanlarından biri olan Kompensasiya Komissiyası 1991-ci ildə Küveytə hücum zamanı İraqa vurulan zərərin əvəzinin ödənilməsi üçün yaradılmışdı. Belə bir Komissiya Ermənistanın Azərbaycana vurduğu zərərin əvəzini ödəməsi üçün də yaradılmalıdır.

Yuxarıda qeyd etdiyimiz kimi, təcavüzkarı cəzalandırmaq üçün Xüsusi Tribunalın yaradılması son dərəcə vacibdir, Beynəlxalq Məhkəmənin fəaliyyəti canlanmalıdır, praktiki olmalıdır və güman edirik ki, dünyada sülh və təhlükəsizliyi təmin etməkdə Təhlükəsizlik Şurası ilə sıx əməkdaşlıqda Beynəlxalq Məhkəmənin rolu böyük ola bilər. Təhlükəsizlik Şurası təcavüz aktını müəyyənləşdirmədikdə, Beynəlxalq Məhkəmənin bu hüququ həyata keçirməsi səlahiyyəti olmalıdır.

Beynəlxalq humanitar sahədə yeni məsələlər ortaya çıxır. Əsirlər barədə hüquqi məsələlərin qaydaya salınması üçün Beynəlxalq məhkəmə komissiyasının yaradılması tövsiyə edilir. Yuxarıda qeyd etdiyimiz kimi, Ermənistanın təcavüzkar müharibəsi nəticəsində 4861 nəfər girov götürüldü. Onlardan 314 nəfəri qadın, 58 nəfəri uşaq, 255 nəfəri qocadır. Bu barədə Beynəlxalq məhkəmə komissiyasının yaradılması vacib problemdir. Beynəlxalq humanitar hüquqda itkin düşənlər barədə xüsusi əsasnamələr var. Dördüncü Cenevrə konvensiyasının 26-cı maddəsi münaqişə zamanı itkin düşənlərin axtarışının yüngülləşdirilməsini nəzərdə tutur. I Əlavə protokolun 33-cü maddəsi konkret olaraq bu problemə həsr edilmişdir. Sənədə əsasən müharibə qurtaran kimi münaqişə tərəfləri itin düşən şəxsləri axtarmalıdır, əks tərəf belə şəxslərin axtarışı üçün bütün zəruri məlumatları təqdim etməlidir. Dördüncü Cenevrə konvensiyasının 138-ci maddəsində nəzərdə tutulduğu kimi saxlanılmış şəxslər, yaxud saxlanıldığı zamanda ölmüş şəxslər barədə məlumat verilir, ölənlərin vətənə göndərilməsi təşkil edilir. Məlumat Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti və onun mərkəzi məlumat agentliyi vasitəsilə, yaxud münaqişə tərəflərindən birbaşa verilir. Baş Məclisin 2004-cü il 20 dekabr tarixli 59/189 saylı qətnaməsi silahlı münaqişələr zamanı itin düşmüş şəxslər barədə münaqişə tərəflərini məlumat verməyə, müvafiq tədbirlər görməyə çağırır. Baş Məclisin 2006-cı il 19 dekabr tarixli 61/155 saylı, 2008-ci il 18 dekabr tarixli 63/183 saylı qətnamələrində də belə çağırışlar var. İnsan hüquqlarının müdafiəsi barədə Avropa konvensiyasında, xüsusən də 2, 3, 5, 8, 10 və 13-cü maddələrdə itin düşənlərin sayını bilmək hüququ göstərilir (11, 349). Ermənistan bu beynəlxalq hüquq normalarına əməl etməlidir.

BMT Nizamnaməsi insan hüquqları sahəsində beynəlxalq münasibətlərin keyfiyyətcə yeni mərhələsinin başlanğıcını qoymuş və beynəlxalq münasibətlər tarixində dövlətlərin insan hüquqları üzrə əməkdaşlığının əsasını qoyan çoxtərəfli müqavilədir. Əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipi ilk dəfə olaraq BMT Nizamnaməsinin 55-56-cı maddələrində təsbit olunmuş, sonralar bir sıra sənədlərdə, o cümlədən 1948-ci il 10 dekabr tarixli İnsan hüquqları barədə ümumi bəyannamədə dəqiqləşdirilmiş, beynəlxalq hüququn müstəqil prinsipi kimi Helsinki Yekun Aktında əksini tapmışdır. 2005-ci il Ümumdünya Sammitində Baş katib K.Annan məruzəsində insan hüquqlarının müdafiəsinin beynəlxalq təhlükəsizlik sisteminin əsas meyarı olduğunu vurğuladı. Məruzənin "Ləyaqətli insanlar şəraitində azad yaşamaq" adlı III hissəsində qanunvericiliyin, demokratiyanın, insan hüquqlarının müdafiə edilməsinin vacibliyi göstərilmişdi. K.Annan üzv dövlətləri insan hüquqları barədə sazişləri yerinə yetirməyə, Beynəlxalq Məhkəmə ilə əməkdaşlığı möhkəmlətməyə, dövlətlərin daxili işlərinə qarışmamağa və suveren hüquqları müdafiə etməyə, genosid, etnik təmizləmə, bəşəriyyətə qarşı cinayətlərlə kollektiv mübarizəyə çağırdı. Baş katib bildirdi ki, "əgər xalq təhlükədən qorunmaq üçün əlinə silah götürürsə, beynəlxalq birlik onu dəstəkləməlidir. Əgər milli hökumət öz vətəndaşlarını qorumaq iqtidarında deyilsə, Nizamnaməyə

müvafiq olaraq Təhlükəsizlik Şurası məcburi tədbirlər görməlidir.” Məruzədə İnsan hüquqları üzrə komissiyanın təkmilləşdirilməsi zəruriliyi qeyd edilirdi. Genosidlə bağlı Təhlükəsizlik Şurası adekvat tədbirlər görmürsə, onun məsuliyyət daşıması barədə Baş katib Nizamnaməyə əlavələr edilməsini təklif etdi. K.Annan İnsan hüquqları barədə komissiyanın dəyişərək BMT-nin əsas orqanı olması, yaxud Baş Məclisin köməkçi orqanı olması təklifini irəli sürdü. İştirakçı dövlətlərin paktda qəbul edilmiş hüquqların həyata keçirilməsinə dair gördükləri tədbirlər barədə məruzələrinə baxmaq, onlara irad tutmaq, iştirakçı dövlətlərin bu və ya digər dövlət tərəfindən götürülmüş öhdəliklərin yerinə yetirilməməsi barədə şikayətlərinə, həmçinin ayrı-ayrı şəxslərin yurisdiksiyası altında olduğu dövlət tərəfindən hüquqlarının pozulması barədə şikayətlərə baxmaq Baş Məclisin köməkçi orqanı olan bu komitənin əsas funksiyasıdır.

2006-cı ildə Azərbaycan Şuranın tərkibinə daxil edildi. İnsan hüquqları üzrə Şura Azərbaycanda Ermənistan tərəfindən pozulan hüquqlar barədə təhqiqat aparmalı, məruzə etməlidir. Şuranın sədri və üzvləri müvafiq hökumət rəhbərləri, parlament üzvləri, məhkəmələr, qeyri-hökumət təşkilatları, elm adamları, press nümayəndələri ilə görüşməli, ictimaiyyət arasında olmalıdır.

Yuxarıda deyilənləri ümumiləşdirərək, belə nəticəyə gəlirik ki, beynəlxalq hüquq normalarının Beynəlxalq Məhkəmə vasitəsilə həyata keçirilməsi beynəlxalq münasibətlərin tarazlaşdırılmasında mühüm amildir. Sülh və təhlükəsizliyi müdafiə etmək üçün Təhlükəsizlik Şurası və Beynəlxalq Məhkəmə arasında sıx əməkdaşlıq olmalıdır. Təhlükəsizlik Şurası təcavüz aktını müəyyənləşdirmədikdə, Beynəlxalq Məhkəmənin bu hüququ həyata keçirməsi səlahiyyəti olmalıdır. Təcavüzkarı cəzalandırmaq üçün Xüsusi Tribunalın yaradılması son dərəcə vacibdir. Əsirlər barədə hüquqi məsələlərin qaydaya salınması üçün Beynəlxalq məhkəmə komissiyası yaradılmalı, Beynəlxalq Məhkəmə İnsan hüquqları üzrə Şura, Kompensasiya Komissiyası ilə əməkdaşlıq etməlidir.

## ƏDƏBİYYAT


1. Abdullayev Ə.İ. Erməni təcavüzü, acı faktlar, fəlakətli nəticələr. Bakı: İqtisad Universiteti, 2003, 113 s.
2. Блищенко И.П., Солнцева М.М. Мировая политика и международного право. М.: Международные отношения, 1991, 160 с.
3. Бутрос Бутрос Гали. Навстречу новым вызовам. Доклад о работе Организации за период с сорок девятой по пятидесятую сессию Генеральной Ассамблеи, Организация Объединенных Наций, Нью-Йорк, 1995, 512 с.
4. Доклад Брахими. Операции по поддержанию мира, http:// www.un.org.
5. Заемский В.Ф. ООН и миротворчество. Курс лекций. М.: Международные отношения, 2008, 312 с.
6. Erməni cinayətləri (sənədlər əsasında). Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi. I c., Bakı: Vətən, 2004, 164 s.
7. Кофи А.Аннан. Обновление на переходном этапе. Годовой доклад о работе Организации. Организация Объединенных Наций, 1997, 102 с.
8. Международные конфликты / Под ред. В.В.Журкина, Е.М.Примакова. М.: Международные отношения, 1972, 240 с.
9. Перечень резолюций Совета Безопасности принятых в 2001 году, www.un.org/ russian.

10. Резолюция, принятая Генеральной Ассамблеей 8 сентября 2000 года. Декларация тысячелетия Организация Объединенных Наций, http: // www.un.org/ russian.
11. Сборник документов ООН по армяно-азербайджанскому Нагорно-Карабахскому конфликту. Баку: Министерство Иностранных Дел, 2009, 368 с.

## ПЕРСПЕКТИВЫ УСИЛЕНИЯ РОЛИ МЕЖДУНАРОДНОГО СУДА НА УРЕГУЛИРОВАНИИ РЕГИОНАЛЬНЫХ КОНФЛИКТОВ

**Р.Б.ДАДАШОВА**

**РЕЗЮМЕ**

Осуществление международных правовых норм через Международный Суд актуальных проблем по урегулированию международных отношений. Особый трибунал должен создаться для наказания агрессора. Совет Безопасности и Международный Суд должны сотрудничать по поддержанию мира и безопасности. Комиссия Международного Суда должна создаться по урегулированию правовых проблем пленов. Международный Суд должен сотрудничать с Советом по правом человека, Комиссией по компенсации.

**Ключевые слова:** Международный Суд, права человека, Особый трибунал, военное преступление, геноцид, агрессивная война

## PERSPECTIVES OF STRENGTHENING THE ROLE OF INTERNATIONAL COURT İN THE REGULATİON OF THE REGİONAL CONFLİCTS

**R.B.DADASHOVA**

**SUMMARY**

The International Court Commission must be established for the regulation of legal problems of captives. International Court must cooperate with the Council of Human Rights and the Compensation Commission

İmplementation of international – legal regulations through international court is one of the urgent problems in the regulation of international relations. Security Council and International Court must cooperate to provide peace and security.

**Key words:** International Court, Human Rights, Special Tribunal, military crimes, genocide, aggressive war